# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Ramazan "Qurani-Kərim"in baharıdır**



6

## Azərbaycan qlobal təhlükəsizlik sisteminin bazasında: İlham Əliyev Sülh Şurasının əsas liderlərindəndir




2

SƏS
№ 014 (7424)
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
20 fevral 2026-cı il.
Qiymәti 1 manat

**Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı**



3

# ABŞ-İran müharibəsi qapıdadır...



6

**Qlobal səhiyyə problemləri: təhlükə böyüyür**



8

**Azərbaycan olimpiya ölkəsinə çevrilib**



5

## İran çənbəri daralır – bəs bizi nə gözləyir?



6

## Belaruslu blogerin Emin Hüseynov haqqında dedikləri gündəm oldu



7







# Azərbaycan qlobal təhlükəsizlik sisteminin bazasında: İlham Əliyev Sülh Şurasının əsas liderlərindəndir

***Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdədir. Dünən Vaşinqtonda Sülh Şurasının ilk iclası keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib. Əvvəlcə birgə foto çəkdirilib. Daha sonra ABŞ Prezidenti Donald Tramp tədbirdə çıxış edib.***




Azərbaycan lideri ABŞ paytaxtında həmçinin bir sıra görüşlər də keçirib. Görüşlərdə qlobal məsələlərlə bağlı Azərbaycanın mövqeyi ortaya qoyulub, dövlətlərarası əməkdaşlığını artırılması, sülh siyasətinin genişləndirilməsi müzakirə olunub. Xüsusən də, Sülh Şurasının yaradılmasının bütün dünya üçün əhəmiyyəti vurğulanıb və bunun təməlində dayanan ölkələrdən birinin də Azərbaycan olması son dərəcə əhəmiyyətli hesab edilib. Məlum olduğu kimi, BMT və digər beynəlxalq təşkilatlar artıq dünyada öz nüfuzunu və təsir imkanlarını itirib. Dünyadakı münaqişələri həll etmək, müharibələrin dağıntılarını aradan qaldırmaq üçün yeni, beynəlxalq bir platformanın yaradılmasına ehtiyac var idi.

Bu təşəbbüs ortaya çıxanda ilk dəvət olunan ölkələrdən biri də Azərbaycan oldu. Bu, heç də təsadüfi deyil. Son vaxtlar dünyada sülh siyasəti aparan, bu sahədə öz təcrübəsini göstərən Azərbaycan qlobal məsələlərdə daim təşəbbüskar və çağırışçı bir dövlət kimi özünü təsdiqləyib. Azərbaycan lideri İlham Əliyev qlobal arenada nüfuzlu liderlərdən sayılır və onun beynəlxalq nüfuzu da Azərbaycanın qlobal məsələlərdə öndə olmasını təmin edir. Təsadüfi deyil ki, bu yaxınlarda Azərbaycan Prezidentinə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə “Zayed İnsan Qardaşlığı Mükafatı” təqdim olundu. Bu, bir daha Azərbaycan dövlətinin və onun rəhbəri İlham Əliyevin bu sahədəki siyasətinə verilən beynəlxalq səviyyəli növbəti qiymət idi.

Beləliklə, ABŞ paytaxtında Sülh Şurasının ilk sammitində ən görkəmli liderlərdən biri Prezident İlham Əliyev, ən öndə olan ölkələrdən biri də Azərbaycandır. Bu fakt Azərbaycanın və onun lideri İlham Əliyevin hansı səviyyədə beynəlxalq nüfuza malik olduğunu bir daha aydın şəkildə göstərir.

Sülh Şurasının ilk iclası qabağı Azərbaycan Prezidentinin keçirdiyi görüşlərdə sülh və əməkdaşlıq siyasətinin Azərbaycan nümunəsindən danışılıb.

Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüş zamanı Komitənin nümayəndə heyətinin ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Azərbaycanda bütün dinlərin və mədəniyyətlərin nümayəndələrinin bir ailə kimi sülh və mehribanlıq şəraitində yaşadıqlarını, bunun dünya üçün nümunə olduğunu deyən Elliot Brandt ölkəmizdə yəhudi icmasına dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu harmoniya şəraitində yaşadıqlarını vurğuladı, tolerant mühitin ölkəmiz üçün tarixən həyat tərzi olduğunu dedi. Görüşdə Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə qlobal səviyyədə verdiyi töhfələr yüksək qiymətləndirildi.

Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunuldu, Donald Trampın hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi vurğulandı.

Bir müddət əvvəl Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə uğurlu səfərinə və “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Bu Xartiyada ölkələrimiz arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, süni intellekt və rəqəmsal transformasiya məsələlərinin də prioritet istiqamətlər kimi müəyyən edildiyi qeyd olundu.

Amerika İsrail İctimai Əlaqələr Komitəsinin Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsində rolu vurğulandı.

Görüşdə ölkəmizlə bu təşkilat arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Ümumiyyətlə, beynəlxalq vəziyyətin gərginləşdiyi bir dövrdə sülh siyasətinə, ölkələrinin əməkdaşlığının təbliğinə böyük ehtiyac var. Bunu öz siyasəti ilə nümunə olaraq göstərən ölkələrdən biri Azərbaycan, bunun yeganə doğru yol olduğunu öz fəaliyyəti ilə ortaya qoyan liderlərdən biri də İlham Əliyevdir.

Bu səbəbdən, dünya ölkələri Azərbaycanın çağırışlarını eşidir və bəzi nümunələrimizi götürüb tətbiq edirlər. COP-29 prosesində Azərbaycanın qlobal ekoloji problemlərin həllində necə güclü təşəbbüskar olduğu və bu məsələyə beynəlxalq diqqəti artırmaq istiqamətində necə yaxşı təşkilatçılıq etməsini bütün dünya gördü.

Eyni zamanda, 30 ildən müddətdə torpaqlarımızı işğal etmiş, xalqımıza qarşı terror və soyqırım həyata keçirmiş Ermənistana qarşı belə necə sülh siyasəti yürütdüyümüzü də bütün dünya gördü. Bir-biri ilə müharibə edən, düşmənçilik yürüdən ölkələri barışdırmağa çalışan, qarşılıqlı faydalı əməkdaşlıq və dostluq siyasəti təbliğ edən Azərbaycan lideri uzun illərdir dünyanı xilas etmək üçün başqa yolun olmadığını anlatmağa çalışır və artıq demək olar ki, bunu böyük əksəriyyət anlayır. Məhz bu səbəbdən dünyanın yeni qurulan təhlükəsizlik sistemində Azərbaycanın xüsusi yeri var. Dünyadakı 200 ölkənin yalnız bir neçəsinin yeni qurulan bu qlobal platformanın-Sülh Şurasının təməlində dayandığını demək kifayətdir ki, Azərbaycanın qlobal nüfuzunun hansı səviyyədə olduğunu görəsən.

Ümumiyyətlə, Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclası dünya tarixinə yeni bir dövrün başlanğıcı kimi düşəcək. Azərbaycan isə Prezident İlham Əliyevin şəxsində yeni dünya tarixində, yeni qlobal axitekturanın qurulmasında öz imzasını atacaq. Ümidvarıq ki, bu yeni platforma dünyada sülhün və əməkdaşlığın qurulmasını təmin edəcək.

***Elçin Bayramlı***

***Fevralın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı" adlı tədbir keçirilib.***






## *YAP Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib*

# Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının 33 illik fəaliyyətindən bəhs edən videoçarx









nümayiş olunub.

Çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və partiyanın Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə təbrik edib: "Bugünkü tədbir partiyamızın, o cümlədən YAP Yasamal rayon təşkilatının ötən müddət ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna bir daha nəzər salınması baxımından mühüm əhəmiyyətə malikdir".

Tahir Budaqov bildirib ki, bu gün dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan müasir Azərbaycanın möhtəşəm uğurlarında siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının mühüm rolu və payı var: "Ötən əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin gələcək taleyini müəyyən edən əlamətdar hadisələrdən biri məhz Yeni Azərbaycan Partiyasının yaradılması olmuşdur. Bu, sadəcə olaraq, bir partiyanın təsis olunması deyil, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin dönüş nöqtəsidir. Bəllidir ki, Yeni Azərbaycan Partiyasının yarandığı şərait olduqca mürəkkəb dövrə təsadüf edir. Hələ XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində istər SSRİ miqyasında, istərsə də respublika səviyyəsində dağıdıcı proseslər baş verərkən - sovetlər ittifaqının çöküşü fonunda digər bir sıra ölkələr kimi, Azərbaycan da olduqca çətin vəziyyətlə qarşılaşmışdı. Respublikada faktiki olaraq ictimai-siyasi böhran mövcud idi, iqtisadi tənəzzül, siyasi qeyri-müəyyənlik və vətəndaş qarşıdurması ilə yanaşı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və ölkəmizin bölgədə təcrid vəziyyətinə düşməsi ciddi təhdidlər, o cümlədən müstəqilliyin itirilməsi təhlükəsi yaratmışdı. Belə bir şəraitdə məqsədyönlü siyasət nəticəsində milli birliyin təmin edilməsi, müstəqil dövlət quruculuğunun həyata keçirilməsi və Azərbaycanın təlatümlərdən xilas edilməsi zərurətə çevrilmişdi. Bunun üçün isə təcrübəli, qətiyyətli, vətənpərvər və milli maraqları hər şeydən üstün tutan güclü siyasi liderə ehtiyac var idi.

**Ardı Səh. 4**

# Yeni Azərbaycan Partiyası: xalqın iradəsinə söykənən siyasi etimad ünvanı







Əvvəli-Səh-3

Bu tarixi şəxsiyyət isə, heç şübhəsiz, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Xalq yalnız onun liderliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub saxlanıla və parlaq gələcəyinin qurula biləcəyinə inanırdı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Heydər Əliyevə müraciət edərək yeni, müstəqil Azərbaycan uğrunda Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi də məhz bu inamdan qaynaqlanırdı. Ulu Öndərin həmin müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verməsi isə taleyi sual altında olan Azərbaycanın gələcəyi naminə müstəsna əhəmiyyətə malik olmuşdur. Beləliklə, 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması Heydər Əliyevin bənzərsiz liderlik və fenomenal idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qısa müddət ərzində respublikanın bütün bölgələrində yerli təşkilatların yaradılması istiqamətində mühüm addımlar atılmış, müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi və qarşıda duran hədəflərə çatmaq üçün sistemli fəaliyyət həyata keçirilmişdir".

YAP Sədrinin müavini vurğulayıb ki, yeni dəyərlər yaradaraq siyasi mədəniyyət nümunəsi ortaya qoyan Yeni Azərbaycan Partiyasına göstərilən yüksək etimad onun ümumxalq partiyasına çevrilməsini şərtləndirmişdir: "YAP ölkədə keçirilən bütün seçkilərdə inamlı qələbələr qazanaraq siyasi həyatda avanqard qüvvə - lider partiya olduğunu sübuta yetirmiş, hər bir siyasi marafondan uğurla və daha güclü çıxaraq siyasi sistemdə yerini daha da möhkəmləndirmişdir. Yeni Azərbaycan Partiyası 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi - milli maraqların qorunması, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görərək mühüm nailiyyətlərə imza atmışdır".

Tahir Budaqov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasi varisliyi təmin etməklə, Azərbaycan dövlətini milli maraqlara, mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasəti ilə zirvələrə daşıyacaq lider yetişdirməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir: "Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsindən sonra həm partiyamızın həyatında, həm də Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada etibarlı tərəfdaş kimi tanınmışdır.

Ən əsası, ölkəmiz öz ərazi bütövlüyü və mütləq suverenliyini təmin etməklə Zəfər zirvəsinə yüksələrək regionumuz üçün də yeni perspektivlər yaratmışdır. Bu gün Cənubi Qafqazda Azərbaycanın konstruktiv siyasəti və prinsipial mövqeyi nəticəsində sülh və etimad quruculuğu uğurla həyata keçirilməkdədir".

"Hazırda sıralarında 750 mindən artıq vətəndaşımızı birləşdirən, öz fəaliyyətində dialoq, konstruktiv əməkdaşlıq, qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərinə söykənən, plüralizmi təşviq edərək siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası müasir çağırış və hədəfləri əsas götürərək məqsədyönlü fəaliyyətini müvəffəqiyyətlə davam etdirir", - deyən YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib ki, bu, partiyamızın ictimai-siyasi dayaqlarını gücləndirir və xalq-iqtidar birliyinin daha da möhkəmlənməsini şərtləndirir.

Tahir Budaqovun sözlərinə görə, YAP milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, eləcə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, partiyamızın və ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsinə hədəflənmiş mühüm tədbirlər reallaşdırır: "Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni dövrün çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirmək əzmindədir. Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin mütərəqqi siyasi kursuna uyğun fəaliyyətini davam etdirən YAP Yasamal rayon təşkilatı da yeni dövrün reallıqlarından irəli gələn çağırışları diqqət mərkəzində saxlamalıdır. 1993-cü il fevralın 20-də yaradılan YAP Yasamal rayon təşkilatının sıralarında hazırda 34 min nəfərə yaxın üzv birləşmişdir ki, onlardan 18 mindən çoxu qadınlar, 2500-i isə gənclərdir. Bu böyük potensial rayon təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir".

"Ümummilli Liderimizin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Dünən Azərbaycan naminə tarixi məsuliyyəti öz üzərinə götürən Ulu Öndərin ətrafında yaranmış, bu gün qalib xalqın Lideri - Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP sabah da ümumxalq partiyası kimi fəaliyyətini uğurla davam etdirərək xalqımıza möhtəşəm nailiyyətlər qazandıracaqdır. Hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətində davamlı uğurlar arzulayıram. Yasaşın Ulu Öndərimizin qurucusu olduğu müasir müstəqil Azərbaycan dövləti və Heydər Əliyev dühasının xalqımıza böyük mənəvi-siyasi mirası olan Yeni Azərbaycan Partiyası! Vətənimizi, xalqımızı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə eşq olsun!", - deyə YAP Sədrinin müavini əlavə edib.

Sonra çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov qeyd edib ki, Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır: "Partiyanın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını və sarsılmaz olduğunu təsdiqləyir. Bu gün müstəqil dövlətimizi uğurla inkişafa aparan bu yolda Azərbaycan vətəndaşları Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham



Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərirlər. Bu istiqamətdə əldə olunan nailiyyətlərdə, heç şübhəsiz, YAP Yasamal rayon təşkilatının da özünəməxsus rolu vardır".

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyətində ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, beynəlxalq aləmdə layiqli yer tutması kimi əsas milli prioritetlər istiqamətində qurmaqla cəmiyyətdə yüksək nüfuza malik olub: "Gələcəyə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Əldə olunan uğurların siyasi müstəvidə möhkəmləndirilməsində Yeni Azərbaycan Partiyasının, eləcə də YAP Yasamal rayon təşkilatının mühüm xidmətləri var".

44 günlük Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, "Azərbaycan Bayrağı" ordenli Nurlan Mustafayevin anası, "H.Cavid pr.33a" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini Rahilə Ramazanova bildirib ki, Yeni Azərbaycan Partiyası bugünədək xalqın və dövlətimizin taleyində mühüm rol oynayıb və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərib: "Bu gün partiyamızın gücü Ulu Öndər Heydər Əliyev ideyalarından və Prezident İlham Əliyevin uğurlu siyasətindən qaynaqlanır. Prezident İlham Əliyev ölkəmizin nüfuzunu artırmaqla onu dünyada müstəqil xarici siyasət yürüdən dövlət və etibarlı tərəfdaş kimi tanıdıb. Tarixi Zəfərimizdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan dövləti Liderimiz İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləməkdədir".

Çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yolu keçib: "Yarandığı gündən Yeni Azərbaycan Partiyasının əsas məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaradılmasından ibarət olub. Partiya ötən müddət ərzində öz məqsədlərinə uyğun fəaliyyət göstərib, çox mühüm nailiyyətlər əldə edib. Ölkəmizin əldə etdiyi uğurlarda Yeni Azərbaycan Partiyasının müstəsna rolu var".

YAP Yasamal rayon təşkilatının 33 illik fəaliyyətindən bəhs edən Bəxtiyar Nəbiyev qeyd edib ki, təşkilat yarandığı gündən bu günə qədər ictimai-siyasi həyatda öz uğurlu fəaliyyəti ilə hər zaman seçilib: "YAP Yasamal rayon təşkilatı Yeni Azərbaycan Partiyasının Proqramına uyğun fəaliyyəti ilə cəmiyyətin müxtəlif təbəqələrinin partiya ətrafında sıx birləşməsinə mühüm töhfələr verir. Təşkilatımız bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasını uğurla təmin edəcəkdir".

Çıxışlardan sonra YAP Yasamal rayon təşkilatının yaradılmasının 33-cü ildönümü münasibətilə partiyanın və rayonun ictimai-siyasi həyatında fərqlənən şəxslərə fəxri fərmanlar təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonra konsert proqramı təqdim olunub.



# Azərbaycan-Serbiya əməkdaşlığında yeni üfüqlər

## Prezident İlham Əliyev: "Serbiya və Azərbaycan - iki dost ölkə daim bir-birinin yanındadır"

***Azərbaycanın dünya dövlətləri ilə iqtisadi, mədəni, siyasi və digər sahələrdə münasibətlərinin sıxlaşması əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Serbiya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib və strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlir.***

Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji və digər sahələrdə yeni prespektivlərə yol açmışdır. Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında ikitərəfli diplomatik münasibətlər davamlı olaraq həyata keçirilir. 2011-ci il tarixində Azərbaycanın Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri olub. Səfər çərçivəsində Serbiyada Azərbaycan səfirliyi açılıb. Azərbaycan hər zaman beynəlxalq təşkilatlarda Serbiyanı dəstəkləyib və ölkələrimizdə səfirliklərin açılması da ikitərəfli əməkdaşlığa öz mühüm töhfələrini verir. 2013-cü ildə Azərbaycan və Serbiya arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə, eləcə də 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı əhəmiyyət kəsb edir. Dövlətlərarası strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr ildən-ilə genişlənir. Əlbəttə ki, ikitərəfli əlaqələrin daha da geniş miqyas alması üçün potensial böyükdür. 21-22 may 2018-ci il tarixlərində Serbiya Prezidenti Aleksadar Vuçiçinin Azərbaycana rəsmi səfəri mövcud əlaqələrin davamı kimi dəyərləndirilir. 3-6 aprel 2018-ci il tarixlərində isə Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Daha sonra 21-26 oktyabr 2019-cu il tarixlərində Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji sahələrində yeni prespektivlərə yol açmışdır.

Onu da vurğulamaq yerinə düşər ki, parlamentlərarası əlaqələr də mövcuddur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Azərbaycan-Serbiya əlaqələrindən söz açarkən Azərbaycan və Serbiyanın şəhərlərində iki ölkənin xalqlarının görkəmli şəxsiyyətlərinin xatirəsinə ucaldılmış abidələri də qeyd etməliyik. Serbiyaya Ulu Öndər Heydər Əliyevin və böyük bəstəkar Üzeyir Hacıbəylinin abidələri açılıb. 2013-cü il fevralın 8-də isə Bakının mərkəzində serb xalqının görkəmli alimi Nikola Teslanın abidəsinin açılışı olub. Abidənin açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin söylədiyi kimi, artıq bu yer Serbiya-Azərbaycan dostluğu parkıdır. Serbiya və Azərbaycan xalqlarının görkəmli nümayəndələrinin şərəfinə həm Serbiyada, həm də Azərbaycanda ucaldılmış abidələr xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir. Bu əlamətdar hadisələr Serbiya-Azərbaycan dostluğunun təzahürüdür.

### "HƏM SİYASİ, HƏM İQTİSADİ, HƏM DƏ ENERGETİKA SAHƏSİNDƏ ƏLAQƏLƏRİMİZİ DAHA DA GÜCLƏNDİRƏCƏYİK "

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri çərçivəsində dövlət başçıları vacib məsələləri müzakirə edib və bir sıra sənədlər imzalanıb. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Sözsüz ki, rəsmi görüş və sənədlərin imzalanması əlaqələrin daha da genişlənməsinə yeni imkanlar açır. Bu sənədlərin imzalanması əməkdaşlığın yeni müstəviyə qalxması deməkdir. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan və Serbiya beynəlxalq münasibətlər sistemində bir-birinin ərazi bütövlüyünü və suverenliyini qeydşərtsiz dəstəkləyən nadir tərəfdaşlardandır. Ölkəmizin başçısının Belqradda yüksək səviyyədə qarşılanması və liderlərin iştirakı ilə Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının keçirilməsi bu münasibətlərin artıq, sadəcə diplomatik əməkdaşlıq deyil, ali strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini nümayiş etdirdi. Bu səfər Rəsmi Bakı və Belqradın münasibətləri ənənəvi ticarət çərçivəsindən çıxararaq, daha geniş və uzunmüddətli əməkdaşlıq modeli əsasında inkişaf etdirmək niyyətini sübut etdi.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan olimpiya ölkəsinə çevrilib

18 fevral 1947-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Stokholmda keçirilən 41-ci sessiyasında təşkilatın Çexoslovakiyadan olan üzvü doktor Qruss dünya olimpiya günü bayramını keçirmək təklifi ilə çıxış edərək, hər il belə bir günün qeyd olunmasının olimpiya ideallarının təbliğində mühüm rol oynayacağını əsaslandırmışdı. Onun təklif etdiyi layihə bəyənilərək, BOK-nın 1948-ci ilin yanvarında Sankt-Moritsdə keçirilmiş 42-ci sessiyasında olimpiya gününün keçirilməsi haqqında qərar qəbul olunub. İlk Olimpiya günü 1948-ci il iyunun 23-də, dünyanın 9 ölkəsində - Portuqaliya, Yunanıstan, Avstriya, Kanada, İsveçrə, Böyük Britaniya, Uruqvay, Venesuela və Belçikada qeyd olunub.

Son illərdə Beynəlxalq Olimpiya Günündə idmanın başqa növləri üzrə yarışların və müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi ənənə şəklini alıb. Qeyd etmək lazımdır ki, yarış iştirakçıları üçün heç bir yaş və cins məhdudiyyəti qoyulmur. Bütün bunlar Olimpiya Gününün kütləviliyini daha da artırır. Həmin gün BOK-nın himayəsi altında, onun kütləvi idman Komissiyasının rəhbərliyi ilə keçirilir.

Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 34 il bundan əvvəl - 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı.

1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev prezident seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. Belə ki, Ulu Öndər tərəfindən Atlanta Oyunlarına hazırlıq haqqında sərəncamın imzalanması, hazırlığın daim dövlət nəzarəti altında saxlanması, idmançılara dövlət tərəfindən diqqət və qayğının gücləndirilməsi öz bəhrəsini vermiş oldu. Azərbaycan Atlantada 23 idmançı ilə təmsil olundu, bir gümüş medal qazanıldı. Azərbaycan Olimpiya ölkəsinə çevrildi. Həmin zamandan Azərbaycanda idman və olimpiya hərəkatının inkişafında da böyük canlanma diqqətdən yayınmayıb. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya oyunlarında iştirak edib. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olunub. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında, idman tariximizdə ilk dəfə olaraq, 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq, 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir.

2005-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə 5 mart tarixinin ölkəmizdə "Bədən tərbiyəsi və idman günü" olaraq təsis edilməsi bədən tərbiyəsi və idman ictimaiyyəti arasında yüksək əhval-ruhiyyəyə səbəb oldu. Bu günün seçilmə səbəbi də təsadüfi deyildi. Məhz 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev ölkədə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyaraq, dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşmüş, sağlam həyat tərzini və idmanın inkişaf tələblərini təmin etmək məqsədilə əsaslı vəsait ayıraraq, İdman Fondunu yaratmış və beləliklə, böyük uğurların təməli qoyulmuşdu.

### "İDMAN DOSTLUĞU MÖHKƏMLƏNDİRƏN, XALQLARARASI MÜNASİBƏTLƏRİ GÜCLƏNDİRƏN ÖNƏMLİ BİR AMİLDİR"

Artıq MOK beynəlxalq miqyasda böyük nüfuz qazanıb, fəaliyyəti və əldə etdiyi nailiyyətlərlə seçilib. Azərbaycanda keçirilən Avropa və dünya çempionatları da buna nümunədir. Belə ki, müxtəlif beynəlxalq yarışlar, bədii gimnastika, taekvando, güləş, boks, karate və s. bu kimi Olimpiya növlərinə daxil olan idman yarışları, məhz Azərbaycanda keçirilib. Əlbəttə ki, son illərdə Azərbaycanın dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilməsi də buna imkan yaradıb. Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci



Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətlidir. İlk Avropa Oyunlarında 49 ölkədən 6000-dən artıq atlet idmanın 20 növündə mübarizə apardı. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, Bədii Gimnastika üzrə Dünya Kuboku, "Formula-1" kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdi və özünü dünyada idman ölkəsi olaraq tanıda bildi. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu. Azərbaycan 75 qızıl medalla birinci yeri qazandı. İdman arenalarında Azərbaycanın Dövlət Himninin 75 dəfə səslənməsi, təbii ki, böyük qürurdur. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Bu Oyunların keçirilməsi həm ölkəmizin potensialını, həm bizim siyasətimizi, həm də imkanlarımızı göstərir. Çünki bu Oyunlar sadəcə olaraq idman yarışları deyildi. İdman dostluğu möhkəmləndirən, xalqlararası münasibətləri gücləndirən önəmli bir amildir. Bir şəhərdə cəmi iki il ərzində həm Avropa, həm İslam oyunlarının keçirilməsi bizim sivilizasiyalararası dialoqa da verdiyimiz növbəti töhfə kimi qəbul edilməlidir".

Qeyd edək ki, Minskdə keçirilən İkinci Avropa Oyunlarında 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Ümumilikdə, 200 dəst medala 43 ölkə təmsilçisi yiyələnib. Onlardan cəmi 34-ü qızıl medal sevinci yaşayıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil
Təhlil

# ABŞ-İran müharibəsi qapıdadır...



ABŞ prezidenti Donald Tramp İrana qarşı tammiqyaslı hərbi kampaniyaya başlamağa meyllidir. Bu barədə Amerika mənbələri Cenevrədə ABŞ-İran danışıqlarından bir gün sonra, 18 fevralda Axios-a məlumat verib. Bu mənbələrə görə, İslam Respublikasına hücumlar hökumətin mövqeyini sarsıtmaq məqsədi ilə bir neçə həftə davam edə bilər. Omanın rəhbərlik etdiyi danışıqlar prosesi irəliləyiş əldə edib, lakin Amerika rəhbərliyinin bir sıra vacib məsələlərlə bağlı narahatlıqlarını aradan qaldırmayıb. Axios-a mənbələr bildiriblər ki, Ağ Ev İrana hücumların zəruriliyinə əmindir. Bu barədə mənbələr Vaşinqton və Tehranın Cenevrədə dolayı danışıqlar aparmasından bir gün sonra bildiriblər.

”Rəis bezib”, - deyə ABŞ prezidentinin müşavirlərindən biri nəşrə bildirib. O, daha sonra bildirib: ”Rəisin ətrafındakı bəzi şəxslər onu İranla müharibə barədə xəbərdar edirlər, amma düşünürəm ki, yaxın bir neçə həftə ərzində hərbi əməliyyatların baş vermə ehtimalı 90% təşkil edir”. Axios mənbələrinə görə, bu, çox güman ki, bir neçə həftə davam edən və 2025-ci ilin iyun ayında İslam Respublikasının hərbi və nüvə obyektlərini məhv etmək üçün ABŞ-İsrail əməliyyatından daha genişmiqyaslı, əlaqələndirilmiş ABŞ-İsrail əməliyyatı olacaq. Axios mənbələri qeyd edib ki, Baş nazir Benyamin Netanyahunun rəhbərlik etdiyi İsrail hökuməti artıq qarşıdan gələn müharibəyə hazırlaşır. Bu arada, İsrailin 12-ci Kanalındakı mənbələr bildirib ki, Ağ Ev İsrail hökumətinə Omanın himayəsi altında keçirilən iki raund məsləhətləşmələrə baxmayaraq, Tehranla diplomatik prosesin faktiki olaraq dayandığı barədə məlumat verib. Bu, Netanyahu hökumətinə danışıqlar prosesinin yaxınlaşan iflasına və İslam Respublikasının yalnız Yaxın Şərqdəki ABŞ hərbi bazalarına deyil, həm də İsrail ərazisinə zərbə endirməsi gözlənilən tammiqyaslı müharibənin başlamasına hazırlaşmaq üçün əsas verib.

Vaşinqton-Tehran məsləhətləşmələrinə ev sahibliyi edən Maskat dialoqu müsbət qiymətləndirir. ”İran və ABŞ arasında Cenevrədə keçirilən dolayı danışıqlar ortaq məqsədlərin və müvafiq texniki məsələlərin müəyyənləşdirilməsində yaxşı irəliləyişlə başa çatdı”, - deyə Omanın xarici işlər naziri Bədr əl-Busaidi bildirib. O, tərəflərin ”yekun razılaşma üçün bir sıra əsas prinsipləri müəyyən etmək üçün ciddi səylər göstərdiyini” söyləyib. Bununla belə, o, əlavə edib ki, hərtərəfli razılaşmaya çatmaq üçün çox iş görülməlidir. Əl-Busaidi üçüncü raundun nə vaxt planlaşdırıldığını dəqiqləşdirmədən vurğulayıb: ”Tərəflər növbəti görüşdən əvvəl növbəti addımları dəqiq başa düşərək ayrıldılar”.

”Bəzi cəhətlərdən hər şey yaxşı keçdi, İran diplomatları daha sonra görüşməyə razı oldular”, - deyə ABŞ-ın vitse-prezidenti J.D.Vance Cenevrədə keçirilən məsləhətləşmələri yekunlaşdırarkən bildirib: ”Lakin digər sahələrdə prezidentin iranlıların hələ qəbul etmək və həll etmək istəmədiyi bir neçə qırmızı xətti qeyd etməsi çox aydın idi”.

Lakin Tehran Cenevrə dialoqunun nəticələrinə müsbət baxır və qeyd edir ki, bu dialoqlar Vaşinqtonla gələcək razılaşmanın rəhbər prinsipləri üzrə razılığa gətirib çıxarıb. Lakin, növbəti məsləhətləşmələr üçün konkret tarix hələ müəyyən edilməyib, İranın xarici işlər naziri Abbas Əraqçi İsveçrədə dolayı əlaqələrdən sonra bildirib. ”Qərara alınıb ki, hər iki tərəf mümkün razılaşmanın mətnləri üzərində işləyəcək, sonra bu mətnləri mübadilə edəcəyik və sonra üçüncü raundun tarixini müzakirə edəcəyik”, - deyə İran diplomatı bildirib. ”Axios” agentliyinin məlumatına görə, Amerika tərəfi Tehranın ”mövqelərindəki bəzi boşluqları aradan qaldırmaq üçün” iki həftə ərzində yeni təkliflər təqdim edəcəyini gözləyir.

Bu arada, ABŞ Yaxın Şərqdəki qüvvələrini gücləndirməyə davam edir. Son 24 saat ərzində bölgəyə əlavə 50 qırıcı təyyarə - F-35, F-22 və F-16 - yerləşdirilib. Nəticədə, orada ABŞ Hərbi Dəniz Qüvvələrinin iki təyyarədaşıyan zərbə qrupu, təxminən 12 Amerika gəmisi, yüzlərlə qırıcı təyyarə və bir neçə raketdən müdafiə sistemi yerləşdiriləcək. Buna cavab olaraq, İran öz hərbi manevrlərini həyata keçirir. İran Hərbi Dəniz Qüvvələrinin kontr-admiralı Həsən Maqsudolu fevralın 19-da ölkəsinin Oman körfəzində və Hind okeanının şimalında Rusiya Hərbi Dəniz Qüvvələri ilə birgə dəniz təlimləri keçirəcəyini açıqlayıb. Onun sözlərinə görə, əsas məqsəd dəniz təhlükəsizliyi təhdidləri ilə mübarizədə, xüsusən də ticarət gəmilərinin və neft tankerlərinin qorunmasında əməkdaşlıq etməkdir.

***V.VƏLİYEV***

# Ramazan “Qurani-Kərim”in baharıdır



Deyirlər ki, minlərlə çiçək var, amma gül başqadır. Milyonlarla insan var, amma dost başqadır. Neçə-neçə aylar var, amma bu ay – Ramazan başqadır. Ulu Tanrı gəlişi ilə çölə-çəmənə yaşıl rəng səpələyən, min bir rəngli gül-çiçəyi ilə dünyamızı bəzəyən, dağların zirvəsindəki qarı əridib şaqqıltı ilə axan çaylara qovuşduran, büllur bulaqları qış yuxusundan oyadıb onlara həzin nəğmə oxutduran, ilıq nəfəsi ilə payızda soyuqdan özlərinə yer axtarıb isti ölkələrə üz tutan quşları geri çağıran baharı var etdiyi kimi, Ramazan ayını da “Qurani-Kərim”in baharı olması üçün var etdi. Onun başına “tac” qoyub on bir ayın sultanı elan etdi. Bu ayın qədərinə müqəddəs kitabımızın nazil olmasını nəsib etdi. Ramazanla müsəlman aləmi özünün yeni bir dövrünə – baharına, yazına qədəm qoydu. İslam dini bu baharla dinlərin ən ali mərtəbəsinə ucaldı. Allahın sonuncu elçisi Həzrəti Məhəmmədə (s.a.s) peyğəmbərliyin bu ayda verilməsi, müsəlmanların Məkkəni Ramazanda fəth etməsi, bir də oruc kimi möhtəşəm ibadətin bu aya layiq görülməsi, sanki Tanrının da həmin 30 günə sevdasındanmış

Məlumdur ki, oruc İslamla başlamamışdır, insanlar İslamdan əvvəl də oruc tutmuşlar. Bu, “Qurani-Kərim”də də açıq-aşkar ifadə edilmişdir: “Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi” (Bəqərə, 183). Lakin yuxarıda sadalananların on bir aydan fərqli olaraq məhz bu aya sığdırılması Ramazanı zaman-zaman müqəddəsləşdirdi. Allah-Taala orucla bağlı buyurub: “...Oruc mənim üçün edilən və riya qarışmayan ibadətdir. Onun mükafatını mən verəcəyəm. Çünki oruc tutan yeyib-içməyini və digər istəklərini mənim üçün tərk edib”.

Oruc tutmaqla Allahın əmrini sevərək yerinə yetirən möminlərin bağışlanacağını, günahlarının silinəcəyini müjdələyən Həzrəti Məhəmməd isə belə buyurub: “Kim inanaraq, mükafatını Allahdan istəyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar İnsanın hər yaxşı əməlinin əvəzi qat-qat verilir. Bir yaxşılıq on qatdan 700 qata qədər mükafatlandırılır”. Bundan aydın olur ki, oruc Uca Yaradana böyük səbir və fədakarlıqla edilən ibadətdir. İldə bir ay ərzində insanın gecənin ala¬qaranlığından günəş batana qədər ən təbii haqqı və zəruri ehtiyacı olan qidadan uzaq durması böyük iradə və səbrin, inamın nümunəsi, Allahın əmrlərinə təslim olmanın göstəricisidir.

Ramazan ayı Allaha ibadətlə yanaşı, həm də bu ayda ac qalmaq tibbi cəhətdən insanlar üçün çox əhəmiyyətlidir. Orucda böyük ilahi hikmət var. Eyni zamanda bir ay oruc tutmaq insanın sağlamlığında da mühüm rol oynayır. Axı bu əməli vacib edən Allah-Taala bəndəsinə faydalı olmayan heç nəyi əmr etməz. Peyğəmbərimiz Həzrəti Məhəmməd buyurmuşdur: “Oruc tutun ki, sağlam olasınız!” Qədim zamanlardan başlamış günümüzədək oruc ibadətlə yanaşı, insan sağlamlığını möhkəmlətmək, müxtəlif xəstəlikləri müalicə etmək üçün təbii vasitə kimi də nəzərdə tutulub. Antik dövrdə Sokrat, Platon, Aristotel kimi yunan müdrikləri müəyyən müddət ac qalmağı, başqa sözlə, oruc tutmağı tövsiyə etmişlər. Müasir alimlər də yemək-içməkdən imtina etməklə bir çox xəstəliklərin müalicəsində uğurlu nəticələr əldə ¬etmişlər.

Bir çox dərdin dərmanı elə insanın öz əlindədir. Bu gün həkimlər təsdiqləyirlər ki, oruc tutmaq hamı, hətta sağlam adamlar üçün həyati zərurətdir. İnsan qida qəbul edərkən, nəfəs alarkən həm də külli miqdarda toksin maddə qəbul edir. Bu zərərli maddələri bədəndən oruc tutmaqla kənarlaşdırmaq mümkündür. Oruc tutarkən mədə, bağırsaqlar, qara¬ciyər və həzm prosesində iştirak edən digər orqanlar istirahət edir. Bu isə həzm sisteminin yaxşılaşmasına gətirib çıxarır. Qan təmizlənir, damarlar xolesterindən azad olur, beyin daha yaxşı işləyir. Orqanizmdə zəif, xəstə, yaxud zədələnmiş hüceyrələr yeniləri ilə əvəzlənir. Bir çox insanın əziyyət çəkdiyi artıq çəkidən və onun doğurduğu xəstəliklərdən qurtulmaq üçün oruc təsirli vasitədir. Eyni zamanda oruc pis vərdişləri (siqaretə, spirtli içkilərə və sair) bağlılığı tərgitməyə də kömək edir. Oruc ancaq yeyib-içməkdən uzaqlaşmaq deyil, həm də günah sayılan bütün davranışlardan özünü qorumaqdır. Oruc tutan adam halal yeməkdən iftara qədər uzaq qaldığı kimi, dilini yalandan, əllərini haram işlərdən, mədəni haram loxmadan, gözləri harama baxmaqdan, qulaqları yalan və qeybət eşitməkdən, ayaqları pis işlərin arxasınca getməkdən uzaq tutmalıdır. Oruc tutanlar düşmənçiliyə, umu-küsüyə son qoymalıdırlar. Hamı bir-birinə münasibətdə mərhəmətli olmağı, bir-birini bağışlamağı bacarmalıdır. Allah-Taala oruc tutmağı buyurmaqla bütün insanların dinc, mehriban şəraitdə yaşamasının zəruriliyini diktə etmişdir. Həm də ki tək Ramazan ayında deyil, başqa günlərdə də bunlara diqqət yetirilməlidir. Bütün bunlardan sonra belə qənaətə gəlirəm ki, müsəlmanlar üçün Allah-Təalanın buyurduqlarını başdan-başa özünə sığdıra bilən Ramazan ayı, həqiqətən də, “Qurani-Kərim”in baharı, həm də heç zaman solmayan baharıdır.

***Mətanət Məmmədova***

# İran çənbəri daralır – bəs bizi nə gözləyir?

*Mətləb Salahov: “ABŞ-nin məqsədi təkcə qocalmış Xomeneini devirmək deyil, hədəfdə daha dərin planlar var”*



“Belə görünür ki, Donald Tramp Administrasiyası üçün Cenevrədəki İran danışıqları, sadəcə, vaxt qazanmaq və Xomenei rejiminə daha sarsıdıcı zərbə endirmək üçün hazırlıq məqsədi daşıyır. Xüsusilə İsrailin də bu planda daha aktiv yer alması onu göstərir ki, ABŞ və İsrail İranla müharibə üçün daha ciddi hazırlıq görürlər. Bu, təkcə İran məsələsi olmayacaq, bu, həm də bölgədə yeni situasiya, yeni münasibətlər və yeni xəritə yaradılması demək olacaq. Çünki rəsmi Vaşinqtonun hədəfi qocalmış Xomeneini taxtdan salmaqla yekunlaşmayacaq. Hədəfdə daha dərin məqsədlər dayanır”.

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, İrana qarşı hərbi müdaxilə reallaşarsa, bu zaman bütün bölgənin gələcək taleyi də sual altında qalacaq. ”Nəzərə almaq vacibdir ki, 1979-cu ildən bu yana hakimiyyətdə olan dini qüvvələrin devrilməsi ilə məqsəd yekunlaşmayacaq. Çünki dünyanın supergücü bölgədə gələcək onilliklərə hesablanmış məqsədlər üçün hərəkətə keçir. Bu isə o deməkdir ki, bizim də daxil olduğumuz bölgədə hər şey indiki kimi olmayacaq. Əlbəttə, ən böyük aydınlıq zamana bağlıdır”.

***Afət Tahirqızı***

# Belaruslu blogerin Emin Hüseynov haqqında dedikləri gündəm oldu

**_Azərbaycan güclənir və gücləndikcə məkrli daxili və xarici qüvvələr ölkəmizə qarşı çirkin kampaniyanı daha da genişləndirir, lüzumsuz ittihamların sayını artırır. İstək və xəyali arzu da ondan ibarətdir ki, bu yolla Azərbaycanın dünya miqyasında formalaşmış müsbət imicini ləkələyə bilərlər._**

Məkrli niyyətin reallaşması mümkün olmasa da, Fransa, Rusiya, fars-molla rejimi kimi totalitar rejimlərin xüsusi xidmət orqanları Azərbaycana qarşı məkrli planlarını həyata keçirməkdən əl çəkmirlər. Özlərinin müxtəlif qərarlarının və çağırışlarının bir işə yaramadığını anladıqlarından Azərbaycanda doğulub, çörəyini yeyib, suyunu içən İlqar Hacıyev, Qənimət Zayidov, Qabil Məmmədov, Emin və Mehman Hüseynov qardaşları, İmaməddin Əlimanov, Süleyman Süleymanlı, Tural Sadıqlı, Arif Məmmədov, Elşad Məmmədov, Məhəmməd Mirzəli, Orxan Ağayev, Qurban Məmmədov və digərlərindən istifadə etməkdən çəkinmirlər. Bu arada sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun xaricdəki antimilli ünsürlər haqqında açıqladığı fakt müəyyən məsələyə aydınlıq gətirmiş oldu. O mənada ki, həqiqətən də xaricdəki antimilli ünsürlərin əksəriyyəti Fransanın, Rusiyanın, fars-molla rejiminin xüsusi xidmət orqanlarının təsiri altındadırlar. Yəni onların sifarişləri əsasında Tural Sadıqlı, Emin və Mehman Hüseynov qardaşları, Qabil Məmmədov və digərləri Azərbaycana qarşı casus fəaliyyəti göstərmələri və əxlaqsız ifadələr səsləndirmələri təsadüfi deyil. Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov mətbuata açıqlamasında deyir: "Hər kəsə aydındır ki, Mehman və Emin Hüseynov qardaşları qəsdən Rusiya kəşfiyyat xidmətlərinin Azərbaycana qarşı informasiya hücumunun alətinə çevriliblər". Onun sözlərinə görə. Mehman və Emin Hüseynov qardaşları "Qərbi Avropa"da yerləşməsi. sadəcə, "əfsanənin" bir hissəsidir, yəni maskalanmadır: "Ruben Vardanyan haqqında çəkilmiş film Kremlə göstərdi ki, rus oliqarxları üçün ən böyük risk pulların gizlədən sistemlərin ifşa olunmasıdır. Düşünürəm ki, hökm çıxarıldıqdan sonra artıq öz himayədarlarına ümid etməyə dəymədiyini anlayan Vardanyan daha konkret, sənədlərlə, tarixlər və rəqəmlərlə danışacaq. Üstəlik, bu "səmimilik" böyük ehtimalla Rusiyada siyasi səhnənin dəyişməsinə hazırlaşan qüvvələr üçün güclü təbliğat alətinə çevriləcək. Vardanyanla bağlı sənədlər də Epşteynin dosyeləri kimi "studiyaya" çıxarılacaq. Gözləyirik".



Belaruslu videobloger Alaksey Yefremenko iddia edir ki, E.Hüseynov tez-tez barlara baş vurur və qadınsayağı rəqslər edir

Hər kəsi öz adı və ləqəbi ilə çağırırlar. E.Hüseynov da arvad paltarı geyinib, səfirlikdə gizləndiyinə görə ömrünün sonuna qədər alnındakı damğanı silə bilməyəcək. 2014-cü ildə Baş Prokurorluq Emin Hüseynova Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq), 213.2.2 (vergi ödəməkdən yayınma) və 308.2-ci maddələrində nəzərdə tutulan ittiham elan edib. Onun barəsində məhkəmənin 19 avqust 2014-cü il qərarı ilə həbs qətimkan tədbiri seçilərək, axtarış elan edilib.

Emin Hüseynovun qeydiyyata alınmayan qrant müqavilələri üzrə qanunsuz sahibkarlıq fəaliyyətini həyata keçirərək 1 575 956 manat məbləğində külli miqdarda gəlir əldə etdiyi və dövlət büdcəsinə ödənilməli olan 247 551 manat məbləğində xeyli miqdarda vergiləri ödəməkdən yayındığı müəyyən edilib. Eyni zamanda, onun işçilərinə yüksək əmək haqqıya qol çəkdirərək, çox aşağı məbləğdə vəsait ödədiyi, onların hüquqlarını pozduğu, həmçinin ayrılan qrantları mənimsədiyi haqqında RATİ əməkdaşları özləri ictimai şəkildə açıqlamalar vermişdilər. Bu məxluq həbs ediləcəyindən qorxuya düşərək erməni kökənli xislətini, yəni qorxaqlığını ortaya qoyur. O, arvad paltarı geyinərək 10 ay İsveçrə səfirliyində gizlənir. Bu barədə

## *Mehman Hüseynov: "Mənim anam ermənidir, nə olsun ki?"*

Azərbaycan mətbuatı deyil, E.Hüseynovun maliyyə yardımları aldığı mərkəz tərəfindən idarə olunan "Azadlıq radiosu" məlumat yaymışdır. 2015-ci il 12 fevralında isə İsveçrənin SRF telekanalında yayımlanan "Rundschau" verilişində E.Hüseynovun üzünə pudra, əyninə arvad paltarı geyinərək səfirlikdə gizlənməsindən xəbər paylaşmışdı. "Azadlıq radiosu" və İsveçrənin SRF telekanalında yayımlanan "Rundschau" verlişində qeyd edilir ki, E.Hüseynov xarici görkəmini tam dəyişdi, saçını rənglədi, fərqli paltar geyindi: "Emin hətta adamların onu tanıyıb-tanımamasını yoxlamaq üçün bu formada küçəyə də çıxdı".



Məlumatlara görə, E.Hüseynov bəzi hallarda arvad paltarı geyinir, üzünə pudra çəkir, saçlarını rəngləyir və Almaniyanın küçələrində dolaşır. Onu bu vəziyyətdə İsveçrədə də görənlər olub. Belaruslu videobloger Alaksey Yefremenko iddia edir ki, E.Hüseynov tez-tez barlara baş vurur və qadınsayağı rəqslər edir.

### Qardaşlar analarının erməni olmasını gizlətmirlər

Diqqətçəkən digər məqam isə ondan ibarətdir ki, Emin və Mehman Hüseynov qardaşları Fransa və Rusiya xüsusi xidmət orqanlarının ən əziz agentləri olaraq tanınırlar. Təbii ki, sevimli agent olaraq qəbul edilmələrinin də əsas səbəbi analarının erməni olmasıdır. Erməni diasporu qardaşların bir köynək onlara yaxın olmasının əsas gətirərək onlara hər cür dəstəyi göstərir. 2025-ci ilin yanvarında Emin Hüseynovun İrəvana üç günlük səfər etməsi də təsadüfi deyil. O zaman E.Hüseynov səfəri gizli saxlamağa çalışsa da, Yeravanda onu görən ukraynalı bloger Vitali Ofanasev sonradan sosial media üzərindən məlumat yaymışdır. Bu isə bir daha onu təsdiq edir ki, qardaşlar əmdikləri südə xəyanət etmirlər hər məqamda erməni maraqlarını qorumağa, təbliğ etməyə çalışırlar. Düzdür, bir mərhələdə E.Hüseynov anası Firəngiz Hüseynovanın erməni deyil, tatar olduğuna işarələr vurmuşdu. Lakin araşdırmalarla sübuta yetirildi ki, 1947-ci ildə Bakıda anadan olan Firəngiz İbrahim qızı Hüseynova əvvəlki ad və soyadı Yevgeniya Qriqoryevna Ovanesova olub. Arxiv sənədlərində Yevgeniya Ovanesovanın (Firəngiz Hüseynova) anası miliyyətcə erməni olan Arfeniya Sergeyevna Ovanesova kimi qeyd edilib. Yevgeniya Ovanesovanın qızlıq soyadının Bədirzadə kimi qeyd olunmasına səbəb onun İbrahim Bədirzadə və Taynulina Mariya Yarullayevna (1912-ci ildə Rusiyanın Stavropol şəhərində anadan olan Krım tatarı) tərəfindən övladlığa götürülməsidir. Yevgeniya Ovanesovanın adı 1967-ci ildə 20 yaşı olanda Qazaxıstanın Kostanay şəhərinin nikah dairəsində Firəngiz olaraq dəyişdirilib. 2018-ci ilin avqustunda vəfat edən Yevgeniya Ovanesova Suraxanı rayonunun Əmircan qəsəbəsi yaxınlığında yerləşən və camaat arasında "Tatar qəbiristanlığı" adlanan məzarlıqda dəfn olunub. Onun məzar daşında Firəngiz Hüseynova yox, "Frəngiz İbrahim qızı" yazılması diqqət çəkir. Həmin məzarlıqda xeyli sayda və kompakt şəkildə erməni qəbirləri var. Hüseynov qardaşları analarının tatar əsilli olduğunu iddia etsələr də, sənədlər onun erməni əsilli olduğunu təsdiqləyir.



### Emin və Mehman Hüseynovlar analarının erməni olmasını təkzib etmirlər

Fakt qarşısında geri çəkilməyə məcbur olan Emin Hüseynov Sevinc Osmanıqızının TV-sində bildirib ki, onun erməni dostları daha çoxdur, nəinki azərbaycanlılar: "Mən erməni dostlarıma, mənə dəstək verən Avropanın erməni təşkilatlarına təşəkkür edirəm". Hələ uşaq ikən pozulan Mehman Hüseynov isə "bəli, anam milliyyətçə ermənidir, nə olsun ki?" - deyə bildirib. Təbii ki, burada qəbahət heç bir şey yoxdur. Azərbaycanda 30 minə yaxın erməni yaşayır. Eyni zamanda hazırda 40 erməni Qarabağda o dünyaya yollanmaq üçün biletlərini gözləyirlər. Heç vaxt onlara qarşı ayrı-seçkilik olmayıb. Çünki Azərbaycan dünyəvi, hüquqi, demokratik dövlətdir. Bu baxımdan Emin və Mehman qardaşları analarının erməni olmasına görə qınaq obyekti olduqlarını iddia etmələri əsassızdır. Sadəcə, şübhə doğuran hal ondan ibarətdir ki, niyə Mehman və Emin qardaşları erməni keşişləri və revanşistləri kimi pozucu fikirlər söyləyirlər. Nədən Azərbaycana qarşı cəsusluq edirlər, əxlaqsız ifadələr səsləndirib, videolar paylaşırlar? Axı onlar erməni qadının südünü əmsələr də, Azərbaycanın çörəyini yeyiblər, suyunu içiblər. Görünür əmdikləri süd və aldıqları tərbiyə daha üstün olub. Gücüm Mehman və Emin qardaşlarının qulaqlarını burub, boş başlarına şillə vurmağa çatmasa da, imkanım "yediyiniz Azərbaycan çörəyi haramınız olsun".- deyə söyləməyə çatır.

**_İLHAM ƏLİYEV_**

# Çörək məsələsinə gəlincə...



Vaxt var idi ki, heç qara çörəyi bəyənən olmurdu. Deyirdilər ki, qara çörək aşağı keyfiyyətli unla bişirilir. Heç çovdar çörəyi söhbəti yox idi. Nə olmuşdu ki? Hamı ağ çörək yeyirdi: sağlamlığıq da vardı, əhval-ruhiyyə də. Camaatın arasında arıq da vardı, kök də. Heç kim fikirləşmirdi ki, mən ağ çörək yeyim, kökəlim, qara çörək yeyim, arıqlayım.

İndi isə bəzi adamlar ağ çörək yeyir, bəziləri qara? Nə üçün? Çünki beynimizi doldurublar ki, ağ çörək kökəldir, qara çörək kökəlməyə qoymur. Və yaxud da ki, filan-filan xəstəliklərdə ağ çörək yemək olmaz, mütləqdir ki, qara çörək yeyəsən.

Mağazalarda min bir çeşiddə çörək satılır. Hamısı da elə min bir dərdin dərmanı. Ancaq müasir adama, di gəl, bunları bəyəndir. Hərəsinə bir əmmamə qoyurlar. Bu zavod çörəyidir, əllə kəsilmir, gərək bıçaqla kəsəsən, Peyğəmbər də buyurub ki, çörəyə bıçaq vurmaq olmaz. Bu, təndir çörəyidir, nə əllə, nə də bıçaqla kəsmək olmur, gərək iki nəfər hərəsi bir başından tutub darta ki, bəlkə bir qisməт qoparıb ağzına qoya biləsən. Nə bilim, bu, çovdar çörəyidir, bax, ən yaxşısı budur, bundan da qəribə qoxu gəlir axı. Bu qara unla bişən çörəkdir, amma bircə gün qalan kimi dadını dəyişir. Bu da qara çörəkdir, amma deyirlər ki, qara unla bişirmirlər, ağ unun içinə rəngləyici vasitə, hətta qəhvə, kakao tozu vururlar ki, çörək qara rəngdə olsun...

Bax, beləcə, mağazalarda nə çeşiddə çörək varsa, hamısına bir əmmamə qoşuruq. Lakin məsələ ondadır ki, əmmamə qoşa-qaşa da hər gün alırıq. Adama sual verərlər ki, bax, alacaqsansa, nə üçün çörəyin və çörəkbişirənlərin haqqında bu qədər danışırsan?

Ay balam, zavod çörəyindən əlinlə bir qismət qopara bilmirsən, evində bıçaq yoxdur, al əlinə doğra, yığ çörək qabına, qurtarana qədər ye də. Təndir çörəyini nə bıçaqla, nə əllə kəsə bilmirsən, hə, nə olsun. Evdə tək yaşamırsan ki, həyat yoldaşın, oğlun, qızın var, hərəniz bir tərəfindən tutun dartın, parçalayın yeyin də...

Çovdar çörəyindən qəribə qoxu gəlir, gözünüz var da, bir üzərinə baxın, görün nə yazılıb, bəlkə elə sizin başınızı aldadırlar.

Qara çörək almaq istəyirsən, lakin tərəddüd edirsən ki, ağ una rəng və yaxud da qəhvə, kakao tozu qatırlar. Belə fikirləşmə, sən Allah. Bunu edəcək bir Allah bəndəsi olmaz Azərbaycanda. İnsanların haqqına girmə. Ay qardaş, bu çörəyi bişirən düşmən üçün bişirmir ey, bu xalqın insanları üçün bişirir. Heç bunu edən olar, sən Allah? Demək istəyirsən bu, camaat bir-birinə qənim kəsilib? Yox, əsla. Belə düşünmək günahdır. Bu çörəkləri bişirənlərin hər biri bizim qohumumuz. əqrəbamız, qonşumuzdur. Heç belə edərlər?

Yaxşı, çörək əllə kəsilməyə də bilər, dartmaqla bircə qismət qoparmaq da mümkün olmaz. Qara çörəkdir də, qalar sabaha unundan asılıdır, bir qədər qoxu da gələ bilər. Lakin çovdar unu əvəzinə buğda ununa rəngləyici qatıb heç kim qara çörək bişirib satmaz. Buna əmin ol. Biz bir-birimizə o qədər yanan, qədrini bilən, ayağına daş dəyməsinə razı olmayan insanlarıq ki, bunu heç vaxt etmərik.

Rahatlıqla çörəyinizi alın, yeyin. Hə, arıqlamaq istəyirsinizsə, ümumiyyətlə, qara çörək alın. Bir də içərisinə qəhvə, kakao tozu qatanda nə olur ki, qəhvə içmirsiniz? Elə qəhvənin özü arıqladır. Hər kiçik məsələ üçün narahat olmağa dəyməz. Dünya beş günlükdür. Və hər bir şeyə də çarə var.

**_Mətanət Məmmədova_**

SƏS

20 fevral
2026-cı il

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

**1 nüsxə 1 aylığı 8 AZN**

**6 aylıq 48 AZN**

**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!



# Qlobal səhiyyə problemləri: təhlükə böyüyür

***Ötən ilin sonu Berlində keçirilən Dünya Səhiyyə Sammitində təqdim olunmuş son Qlobal Xəstəlik Yükü tədqiqatına görə, qlobal ölüm nisbətləri azalır, lakin yeniyetmə və gənclər arasında azalmır. Bundan əlavə, qeyri-infeksion xəstəliklər hazırda dünyada ümumi ölüm və xəstələnmənin təxminən üçdə ikisini təşkil edir, işemik ürək xəstəliyi, insult və diabet isə dünyada liderlik edir. Tədqiqatçılar həmçinin hesablayırlar ki, bütün ölüm və əlillik hallarının təxminən yarısının qarşısını qan şəkərinin yüksək səviyyəsini və yüksək bədən kütlə indeksini azaltmaqla almaq olar.***

"Dünyada qocalma sürətlənir, eyni zamanda əhalinin sürətli artımı və inkişaf edən risk faktorları qlobal səhiyyə problemlərinin yeni bir dövrünün əsasını qoyub. Qlobal Xəstəlik Yükü tədqiqatında təqdim olunan dəlillər hökumət və səhiyyə rəhbərlərini ictimai səhiyyə ehtiyaclarını yenidən formalaşdırmağa çağıran bir həyəcan siqnalıdır.", - deyə Vaşinqton Universitetindən olan Kristofer Murrey bildirib.

Doktor Murreyin komandası və onun 16.500 alim və tədqiqatçıdan ibarət GBD Əməkdaşlıq Şəbəkəsi, 1990-cı ildən 2023-cü ilə qədər 204 ölkə və ərazidə qlobal, regional və milli səviyyədə 375 xəstəlik, xəsarət və 88 risk faktoru üzrə məlumatlar toplayıb təhlil edib və qiymətləndirmələr aparıblar. Ən son iterasiya üçün ümumilikdə 310.000-dən çox məlumat mənbəyindən istifadə edilib ki, bunların 30%-i bu ilki tədqiqat üçün yenidir.

Əhalinin artımına və yaşlanmasına baxmayaraq, 2023-cü ildə qlobal yaş standartlarına uyğun ölüm nisbəti 1950-ci ildən bəri 67% azalıb. Bütün ölkələr və ərazilərdə azalma müşahidə olunub. Qlobal ömür uzunluğu pandemiyadan əvvəlki səviyyələrə - qadınlar üçün 76,3 yaşa, kişilər üçün isə 71,5 yaşa qayıdıb ki, bu da 1950-ci illə müqayisədə 20 ildən çox yüksəkdir. Bu irəliləyişlərə baxmayaraq, ciddi coğrafi fərqlər qalmaqdadır, ömür uzunluğu yüksək gəlirli bölgələrdə 83 il, Afrikada 62 il olaraq qeydə alınır.

Yeniyetmələr və gənclər arasında ölüm hallarında ən böyük artım 2011-ci ildən 2023-cü ilə qədər yüksək gəlirli Şimali Amerikada 20-39 yaş arası insanlar arasında qeydə alınıb ki, bu da əsasən intihar, narkotik maddələrin həddindən artıq dozası və yüksək miqdarda spirtli içki qəbulu ilə bağlıdır. Eyni dövrdə 5-19 yaş qrupunda ölüm halları Şərqi Avropada, yüksək gəlirli Şimali Amerikada və Karib dənizində artıb.

Bütün tədqiqat dövründə körpə ölümlərinin sayı digər yaş qruplarına nisbətən daha çox azalıb. 2011-ci ildən 2023-cü ilə qədər Şərqi Asiyada daha yaxşı qidalanma, peyvəndlər və daha güclü səhiyyə sistemləri sayəsində 5 yaşdan kiçik uşaqlar arasında ölüm nisbətində ən böyük azalma 68% olub.

Sözügdən tədqiqatın modelləşdirilməsindəki irəliləyişlər göstərdi ki, 1950-ci ildən 2021-ci ilə qədər Saharaaltı Afrikada 5-14 yaşlı uşaqlar arasında ölüm nisbəti əvvəllər hesablanandan daha yüksək olub və bu artım tənəffüs yolu xəstəliklərininin, vərəmin, digər yoluxucu xəstəliklərin və təsadüfi xəsarətlərin yüksək nisbətləri ilə əlaqədardır. Yeni hesablamalar həmçinin Saharaaltı Afrikada 15-29 yaşlı qadınlarda ölüm nisbətinin əvvəllər hesablanandan 61% yüksək olduğunu və bunun əsasən ana ölümü, yol xəsarətləri və meningit səbəbindən baş verdiyini göstərdi.

Ölüm səbəbləri yoluxucu xəstəliklərdən çox qeyri-yoluxucu xəstəliklərdən olur və bu da, xüsusən də aşağı gəlirli ölkələr üçün yeni qlobal səhiyyə problemləri yaradır. 2021-ci ildə ölümün əsas səbəbi olan COVID-19, 2023-cü ildə 20-ci pilləyə düşdü və işemik ürək xəstəliyi və insult yenidən birinci yerə, ardınca xroniki obstruktiv ağciyər xəstəliyi, aşağı tənəffüs yollarının infeksiyaları və neonatal xəstəliklər gəlir. 1990-cı ildən bəri dünyada işemik ürək xəstəliyi və insultdan ölüm nisbəti azalıb, ishal xəstəlikləri, vərəm, mədə xərçəngi və qızılca da nisbətən azalıb. Əksinə, eyni dövrdə diabet, xroniki böyrək xəstəliyi, Alzheimer xəstəliyi və HİV/AİDS-dən ölüm nisbəti artıb.

Qlobal ölümün orta yaşı 1990-cı ildəki 46,4-dən 2023-cü ildə 62,9-a yüksəlsə də, coğrafi bərabərsizliklər bu məsələdə əhəmiyyətlidir. Ən yüksək orta ölüm yaşı yüksək gəlirli superregionda qeydə alınıb, qadınlar 80,5 yaşa, kişilər isə 74,4 yaşa çatıb. Ən aşağı orta ölüm yaşı Saharadan cənubda yerləşən Afrikada qeydə alınıb, qadınlarda 37,1, kişilərdə isə 34,8 yaş olub.

70 yaşından əvvəl ölümün ümumi səbəb ehtimalı 2000-ci ildən 2023-cü ilə qədər hər bir superregion və bölgə üzrə azalıb, lakin narkotik istifadəsi əsas ölüm səbəblərindən biri olub. Afrikada bir çox qeyri-infeksion xəstəliklər üçün ehtimal artıb və qeyri-infeksion xəstəliklərdən ölümün orta yaşı gözləniləndən aşağı olub. Yüksək gəlirli superregionda narkotik istifadəsi artıb və ölümün orta yaşı gözləniləndən aşağı olub.

2023-cü ildə qlobal ölüm və xəstələnmə hallarının təxminən yarısı 88 dəyişdirilə bilən risk faktoru ilə əlaqəli idi. Sağlamlıq itkisinin ən yüksək nisbətinə malik 10 risk faktoru yüksək qan təzyiqi, qanın çirklənməsi, siqaret çəkmə, yüksək qlükoza, aşağı doğum çəkisi və yarımçıq hamiləlik, yüksək xolesterol, böyrək disfunksiyası, çirkli havaya məruz qalmaq idi.

10-cu aparıcı risk olan qurğuşuna məruz qalmaq ürək-damar xəstəlikləri ilə birbaşa əlaqəni sübut etdi. Gündəlik həyatın hər addımında olan qurğuşun yanacaq, boya, çirklənmiş torpaq və su, bir çox mətbəx qablarının tərkibində ola bilir və ciddi ətraf mühit çirkləndiricisidir. Hava çirkliliyi və istilik kimi qlobal problemlər sağlamlığa təsir göstərməyə davam edir. Yüksək temperaturlar həmçinin quraqlıq, qida çatışmazlığı və köçkünlük hallarını daha da artıraraq təhlükəyə səbəb olur.

Psixi sağlamlıq pozğunluqları kəskin şəkildə artıb - 63%. Depressiv pozuqluqlar isə 26% artıb. Bundan əlavə, cinsi istismar və zorakılıq da depressiya, narahatlıq və digər sağlamlıq problemlərinə səbəb olan amillər kimi müəyyən edilib.

5 yaşdan kiçik uşaqlar arasında 2023-cü ildə aparıcı risk faktorları uşaq və ananın qidalanmaması, çirkli su, yetərsiz sanitariya və gigiyena idi. 5-14 yaşlı uşaqlar və yeniyetmələr üçün dəmir çatışmazlığı aparıcı risk idi, 15-49 yaş qrupu üçün ən yüksək iki risk təhlükəli cinsi əlaqə və peşə xəsarətləri idi, ardınca qan təzyiqi və siqaret çəkmə alışqanlığı gəlir. 50-69 yaş arası insanlar üçün yüksək qan təzyiqi ölüm üçün əsas risk faktoru olub.

***Lalə Mehralı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**